# Torpaq titrədi, amma iradə sarsılmadı

*İki il öncə bu gün, saat 04:17... Həmin an Türkiyə tarixinə dəhşətli səhifələrindən biri kimi yazıldı. Kahramanmaraşın Pazarcık rayonunda baş verən 7.7 bal gücündə zəlzələ 11 vilayəti silkələdi, çoxlu sayda insanın həyatını alt-üst etdi. Bir neçə saat sonra Elbistanda, bu dəfə 7.6 bal gücündə yeni bir zəlzələ sarsıtdı Anadolu torpaqlarını. Hər iki yeraltı təkan Türkiyənin cənub-şərqini yerlə-yeksan etdi.*









Bu təbii fəlakət yarımçıq qalan həyatların, bir gecədə yox olan ailələrin, anaların, ataların, övladların sönən ümidlərinin hekayəsidir. Çünki bir gecədə 14 milyon insanın taleyi dəyişdi, təxminən 40 min bina tamamilə çökdü, 200 mindən çox bina isə ciddi ziyan gördü. Yer titrədikcə, şəhərlər və kəndlər darmadağın oldu, Hatayda yer səthində 400 metr uzunluğunda nəhəng bir yarıq yarandı, Qaziantepdə iki təpə birləşdi, Nurdağı bölgəsində bir kənd ortadan bölündü, Kahramanmaraşın Çiğli kəndi 6,5, Değirmenkaya isə 6 metr sürüşdü. Torpaq sanki insanın yaratdığı şəhərləri, qəsəbələri, kəndləri bir göz qırpımında uddu. Fəlakətin ağrısını ən çox hiss edənlər dağıntılar altında qalanlar oldu. Gecənin qaranlığında, səhərin soyuq nəfəsində ümidlə səs gözləyənlər, əl uzadacaq bir insan axtaranlar…

Amma yollar çökmüş, aeroportlar və dəmir yolları istifadəyə yararsız hala düşmüş, dənizin daşması isə nəqliyyatı iflic etmişdi. Xilasetmə işləri bir yarışa çevrilmişdi - həyatla ölüm arasında bir yarışa…

Qardaş Türkiyə tarixinin ən ağır sınaqlarından birini yaşadı. Yerin altından gələn dəhşət evləri, şəhərləri, kəndləri yerlə-yeksan etsə də, insan iradəsini qıra bilmədi. Dövlət və xalq bir yumruq kimi birləşərək tək bir məqsədə xidmət edirdi: dağıntılar altında qalanları xilas etmək, bu fəlakətin qurbanlarını yalnız buraxmamaq. İradə güclü olanda maneələr dəf edilir. Hadisədən sonra quru, hava və dəniz yolları boyunca yardım dəhlizləri açıldı. Uzaq kəndlərə helikopterlər göndərildi, xilasedicilər, həkimlər, hərbçilər, könüllülər canlarını təhlükəyə ataraq həyat qurtarmağa tələsdilər. Sərhədsiz bir həmrəylik dalğası yüksəldi, bələdiyyələr, qeyri-hökumət təşkilatları, sadə vətəndaşlar - hamı öz töhfəsini verməyə çalışırdı. Türkiyənin hər bir guşəsində yardım kampaniyaları başladı. Geyim, ərzaq, yataq, tibbi ləvazimatlar, hər şey fəlakət bölgəsinə daşınırdı. Əli çatan, gücü yetən yardım əlini uzadırdı. Zəlzələnin ilk saatlarından hökumət hərəkətə keçdi. Prezident Rəcəb Tayyib Ərdoğanın tapşırığı ilə hökumət nümayəndələri dərhal bölgəyə ezam olundular. AFAD, jandarma, hərbçilər, polis, xilasedicilər, mədənçilər, səhiyyə işçiləri, minlərlə könüllü - dövlətin bütün güc strukturları səfərbər edildi.

Fəlakət təkcə Türkiyəni deyil, bütün dünyanı hərəkətə gətirdi. Ölkə beynəlxalq yardım çağırışı etdi və dərhal 4-cü səviyyə fövqəladə vəziyyət elan olundu. Azərbaycan başda olmaqla bir çox ölkədən axtarış-xilasetmə qrupları torpağın altında qalan ümidləri diriltmək üçün qardaş ölkəyə yardıma getdilər.

Qardaş köməyinə çatan ilk ölkə Azərbaycan oldu. Türkiyəyə özünü çatdıran ilk xarici yardım heyəti Azərbaycan Fövqəladə Hallar Nazirliyinin xilasediciləri oldu. 41-i tibb işçisi olmaqla 725 nəfərlik yardım kontingenti fəlakət zonasına yollandı. Dağıntılar altında qalan həyatları xilas etmək üçün onlar gecə-gündüz çalışırdılar. Onlar torpağın, daşın, çökən divarların altından çıxan hər bir insan üçün ümid işığına çevrildilər. Hər dəqiqənin ölüm-dirim savaşı olduğu anlarda xilasedicilər 53 nəfəri dağıntılar altından sağ çıxarmağa nail oldular. Vəzifələrini sonadək davam etdirən azərbaycanlı xilasedicilər mart ayının ilk həftəsinə kimi bölgədə qaldılar və Türkiyəni tərk edən sonuncu xarici yardım komandası oldular. Bu fəlakət çox şey apardı - insan həyatları, illərin əziyyəti, xatirələr... Amma Türkiyə bir daha sübut etdi ki, o, güclü bir dövlətdir. Bu faciənin qaranlığında belə ümid işığı yanırdı. Bu işıq dağıntılar altından xilas edilən hər bir insanın gözlərində yenidən parlayırdı…

2023-cü il fevralın 6-da Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanladı: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk". Həmçinin zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını, böyük fəlakətdə ölkəmizin Türkiyənin bu dərdinə şərik çıxdığını, Azərbaycan və Türkiyənin hər zaman bir-birinin yanında olduğunu xatırlatdı. Birinci vitse-prezident Mehriban xanım Əliyeva 2023-cü il fevralın 6-da Türkiyədə baş vermiş zəlzələ ilə əlaqədar "Instagram" səhifəsində paylaşım etdi: "Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələnin nəticələri barədə xəbərləri dərin kədər hissi ilə qarşıladım. Allah faciə zamanı həlak olanlara rəhmət eləsin. Onların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Yaralananların və xəsarət alanların tezliklə şəfa tapmasını arzulayıram. Uca Tanrıdan bütün Türkiyə xalqına güc və səbir diləyirəm!".

Bu günlərdə Azərbaycanın Türkiyəyə təbii fəlakət zamanı yardımları bir daha diqqətə çatdırıldı. Fövqəladə Halların İdarə Olunması Agentliyinin (AFAD) Zəlzələ və Risk Azaltma şöbəsinin rəhbəri Orhan Tatar Kahramanmaraşdakı AFAD mərkəzində keçirilən mətbuat konfransında bildirdi ki, Türkiyədə əsrin fəlakəti adlandırılan dağıdıcı zəlzələdə 90-dan çox ölkə dəstək verib, ilk yardım Azərbaycandan gəlib və tikinti-bərpa, eləcə də digər məsələlərdə də Azərbaycanın dəstəyi davam edir. Qurum rəsmisi, həmçinin bu dəstəyə görə Azərbaycana təşəkkür edib.

Fəlakət təkcə can itkisi ilə məhdudlaşmırdı. Minlərlə insan evsiz qalmışdı. Həmin dövrdə Türkiyə dövləti dərhal hərəkətə keçdi, 350 çadır şəhərciyi quruldu. 645 min çadır 2,5 milyon insana müvəqqəti ev oldu. Bu, sadəcə bir başlanğıc idi. Zəlzələyə davamlı ərazilər müəyyənləşdirildi və orada 414 konteyner şəhəri inşa edildi. Yeni yaşayış məkanlarında 215 min 188 konteyner evində 690 min 644 insan məskunlaşdı.

Hökumət həm də yenidənqurma işlərinə başladı. Fəlakətdən cəmi 18 gün sonra tikinti işlərinə start verildi. Cəmi 80 gün sonra isə bəzi zərərçəkən ailələr yeni kənd evlərinə köçməyə başladılar. 2023-cü il iyul ayının 17-də "yerində transformasiya" prosesi işə düşdü, şəxsi ev və obyekt tikmək istəyənlərə qrantlar və faizsiz kreditlər ayrıldı. Fəlakətin miqyası nə qədər böyük olsa da, bərpa prosesi daha sürətlə həyata keçirildi. Zəlzələ bölgəsində yerləşən 2 milyon 302 min bina və 6 milyon 227 min müstəqil evin dəyərləndirilməsi aparıldı. Ən önəmlisi isə həyatın yenidən doğulduğu şəhərlərdə yeni tikililər ucalmağa başladı. Şəhərlərdə və kəndlərdə ümumilikdə 307 min binanın inşasına start verildi. Həmin evlərin açarları mərhələli şəkildə sahiblərinə təqdim olunur. Onlardan sonuncusu bu ilin sonunadək zərərçəkmiş rayon sakinlərinə təhvil veriləcək. Ümumilikdə isə dağıdıcı zəlzələlərdən keçən iki il ərzində Türkiyənin fəlakət zonasında bütün kəndlər ilin sonunadək bərpa ediləcək. Təkcə Kahramanmaraş vilayətində 345 kənd bərpa edilib, habelə burada 15 min ev tikilib. Bölgənin bərpasını sürətləndirmək üçün 67 fərqli şirkətə Kahramanmaraşın 11 kəndində tikinti işləri aparmaq hüququ verilib. Bundan başqa, daha 9 min evin sahibinin müəyyənləşdirilməsi üçün püşkatma keçirilib. Qalan yaşayış binaları isə bu il istifadəyə veriləcək. Qeyd edək ki, Kahramanmaraşda yeni mənzil fondunun bölüşdürülməsi ilə bağlı növbəti püşkatma mərasimi Prezident Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə bu gün keçiriləcək.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**